AZƏRBAYCAN ORDUSU

# Səngər dostluğu daha möhkəm olur

*İnsan yaşadığı zaman kəsiyində çətinliklərlə üzləşir, sınaqlardan çıxır. Həyatda hər bir insanın gələcək taleyini təhsili, dünyagörüşü müəyyən edir, ömür yolunu istiqamətləndirir. Bu yolun bütün anları ona doğma olur.*

Lerik rayonunun Hramo kəndindən olan əsgər Səfail Heydərov əsgərlik həyatını yaşayanlardandır. Əsgərin yaxın zamanlarda tərxis olunacağını biləndə həmsöhbət olmağı, ordu həyatı ilə bağlı təəssüratlarını qələmə almağı qərara aldım. Hərbi xidmətlə bağlı təəssüratlarını bizimlə bölüşən əsgərə görə, Vətəni qorumaq, ana yurdun keşiyində dayanmaq şərəflidir. "Xidmətimin ilk günündən döyüş hazırlığının artırılmasına diqqət yetirdim, vəzifə borcumun öhdəsindən bacarıqla gəldim, hərbi biliklərə mükəmməl yiyələndim, bir sözlə, tabe olduğum zabit və gizir heyətinin hörmətini qazandım. İlk gündən mehriban, səmimi bir kollektivdə olduğumu hiss etdim. Mənə hərbi xidmətin sirlərinin öyrədilməsində yardımçı olan komandirlərimə və əsgər dostlarıma minnətdarlığımı bildirirəm."



Səfail Heydərov səngərdə - düşmənlə üz-üzə mövqedə Mehman İsayev kimi bir dost qazandığının sevincini bizimlə bölüşdü: "Sevinirəm ki, Mehman kimi dostum var. Onunla bu dostluğu gələcəkdə də kəsməyəcəm. Səngər dostluğu daha güclü, daha möhkəm olur. Mənim də ən böyük arzum işğalda olan torpaqlarımızın tezliklə azad olunmasıdır, - əsgər Heydərov sözünə davam etdi. - Hər zaman torpaqlarımızın azad edilməsi prosesində yaxından iştirak etməyə hazıram.

Əsgər Səfail Heydərov ona təhkim olunan silahın taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilir. "Bizə təhkim olunan silahlardan, texnikadan mükəmməl şəkildə istifadə etməyimizə görə düşmənin hücumlarının qarşısını layiqli şəkildə almağa qadirik. Postda düşmənlə üz-üzə dayanan əsgər həm texnikanı yüksək səviyyədə bilməli, həm də ayıq-sayıq olmalıdır. Düşmənə qalib gəlmək üçün bu vacib amilləri öyrənirik."

Müsahibim ordu həyatında iz buraxan xoş xatirələrini də qeyd etdi. Hərbi hissədə Silahlı Qüvvələr Günü, Novruz bayramı, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və başqa əlamətdar tədbirləri heç zaman yaddan çıxarmayacağını bildirdi. Belə tədbirlərin düşmənlə üz-üzə səngərdə xidmət edən hərbçilərə ruh yuksəkliyinin aşılanmasında böyük rol oynadığını və hərbi xidmətin xoş xatirələr kimi yaddaşında qalacağını qeyd etdi.

**Kapitan Məhəmməd ƏLİYEV, "Azərbaycan Ordusu", foto çavuş N.PƏNAHOVUNDUR**